10 mart- 30 aprel tarixlərində Təhsil Nazirliyinin dəstəyi və Gənclərin Respublika Bədii Yaradıcılıq Evinin təşkilatçılığı ilə məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvləri arasında "Milli dəyərlərimiz-ornamentlər" adlı onlayn respublika rəsm müsabiqəsinə start verilir.

Müsabiqənin keçirilməsində əsas məqsəd uşaq və gəncləri milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək, adət-ənənələrimizin qorunub saxlanılmasına marağı artırmaq, yeni istedadları üzə çıxarmaq və uşaqların yaradıcılıq bacarıqlarının inkişaf etməsinə dəstək olmaqdan ibarətdir.

Mövcud pandemiya şəraiti ilə əlaqədar onlayn platformada təşkil olunan müsabiqə 3 yaş qrupu (6-10, 11-15, 16-20) üzrə 2 mərhələdə keçirilir.

***I mərhələ - 10 mart - 25 aprel 2021-ci il -*** Bu mərhələdə rəsm işləri grbye@mk.edu.az elektron ünvanına və ya +99455-539-55-22 əlaqə nömrəsinə whatsap proqramı vasitəsi ilə göndərilməlidir.

***II mərhələ - 26-30 aprel 2021-ci il -*** Bu mərhələdə qaliblər müəyyən edilir.

Müsabiqə üzrə tələblər aşağıdakılardır:

*- müsabiqəyə Azərbaycan xalqına məxsus milli ornamentləri, naxışları özündə əks etdirən rəsmlər təqdim olunmalıdır;*

*- müsabiqəyə hər müəssisədən yaş qrupları üzrə 1 iştirakçı yalnız 1 rəsm işi təqdim etməlidir;*

*- rəsm işinin ölçüsünə məhdudiyyət qoyulmur;*

*-rəsmlərin işlənmə texnikası sərbəstdir;*

*- seçim zamanı iştirakçının yaşı nəzərə alınmaqla düzgün kompozisiya və ideya əsas götürülür;*

*- Müsabiqəyə təqdim olunan rəsmin aşağı sağ küncündə iştirakçının adı, soyadı, ata adı, təvəllüdü, məşğul olduğu müəssisənin, şəhərin (rayonun) adı göstərilməlidir.*

Müsabiqənin qalibləri və fəal iştirakçıları Təhsil Nazirliyi Gənclərin Respublika Bədii Yaradıcılıq Evinin diplom və sertifikatları ilə təltif olunacaq.